Proceedings of the 8th International Scientific and Practical Conference «Science in the Environment of Rapid Changes»
(May 6-8, 2026). Brussels, Belgium

No 293

PEDAGOGY AND EDUCATION

# Üçüncü Müəllim Və 100 Dil: Reggio Emilia Pedaqogikasinin Fenomenologiyasi

**İmanova Pərvanə İldırım qızı**[1]

[1] Məktəbəqədər təhsilin pedaqogikası kafedrası,
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim;
*Azərbaycan Dövlət Pedaqoji Unversiteti*; Azərbaycan Respublikası

**Xülasə.** Bu məqalə müasir məktəbəqədər təhsil sistemləri arasında özünəməxsus fəlsəfi və praktik çərçivəsi ilə fərqlənən Reggio Emilia yanaşmasını dərindən təhlil edir. İkinci Dünya Müharibəsindən sonra İtaliyada Loris Malaguzzi tərəfindən təməli qoyulan bu pedaqogika, uşağı biliyin passiv qəbuledicisi kimi deyil, öz öyrənmə prosesinin aktiv iştirakçısı və güclü potensiala malik bir hüquq subyekti kimi qiymətləndirir. Araşdırmanın əsas diqqət mərkəzini Reggio Emilia fəlsəfəsinin iki təməl sütunu təşkil edir: "Uşağın 100 Dili" metaforası və "Ətraf mühitin Üçüncü Müəllim" olması konsepsiyası. "Uşağın 100 Dili" konsepsiyası uşaqların dünyanı anlamaq və öz daxili dünyalarını ifadə etmək üçün istifadə etdikləri simvolik vasitələrin çoxsəsliliyini ifadə edir. Ənənəvi təhsil sistemləri əsasən şifahi və məntiqi-riyazi intellektə diqqət yetirdiyi halda; Reggio Emilia yanaşması rəsm, heykəltəraşlıq, musiqi, kölgə oyunları, dramatik təmsil və texnoloji manipulyasiyaların uşağın koqnitiv inkişafındakı həlledici rolunu vurğulayır. Məqalədə bu yanaşmanın Jan Piaje-nin konstruktivizmi və Lev Viqotski-nin sosial-mədəni inkişaf nəzəriyyəsi ilə nəzəri kəsişmə nöqtələri təhlil edilir. "Atelierista" (incəsənət mütəxəssisi) və "Atelier" (emalatxana) anlayışları bu çoxdilliliyin təhsil mühitində necə strukturlaşdırıldığını göstərir. Araşdırmanın ikinci mühüm istiqaməti fiziki mühitin "üçüncü müəllim" kimi fəaliyyət göstərməsidir. Reggio Emilia yanaşmasına görə, öyrənmə mühiti sadəcə bir məkan deyil, pedaqoji prosesin aktiv komponentidir. Estetik zənginlik, şəffaflıq, təbii işıq və materialların strateji düzülüşü uşağın təbii marağını ("provokasiya") canlandırır. Məkanın "Piazza" (mərkəzi meydan) ətrafında təşkil edilməsi uşaqların sosial qarşılıqlı əlaqəsini və icma hissini gücləndirir. Məqalədə həmçinin pedaqoji sənədləşdirmənin (documentazione) rolu da təhlil edilmişdir. Nəticə etibarilə, Reggio Emilia pedaqogikası 21-ci əsrin tələb etdiyi tənqidi təfəkkür, yaradıcılıq və əməkdaşlıq bacarıqlarını formalaşdıran innovativ bir model kimi qiymətləndirilir. Bu modelin təhlili müasir kurikulumların daha çevik, uşaqyönümlü və estetik yönümlü qurulması üçün mühüm elmi baza yaradır.
**Açar Sözlər:** *Uşaqyönümlü təhsil, Reggio Emilia, Uşağın 100 Dili, üçüncü müəllim, pedaqoji sənədləşdirmə, konstruktivizm.*

---

## Giriş

Müasir məktəbəqədər təhsil ənənəvi bilik ötürülməsi yanaşmalarından uzaqlaşaraq, uşağı öz inkişafının fəal iştirakçısı kimi qəbul edən konstruktiv və post-konstruktiv modellərə yönəlmişdir. Bu transformasiyanın parlaq nümunəsi

*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

İkinci Dünya Müharibəsindən sonra İtaliyanın Reggio Emilia şəhərində Loris Malaguzzi və yerli icma tərəfindən inkişaf etdirilmiş pedaqoji yanaşmadır (Edwards, Gandini, & Forman, 1998).

Reggio Emilia pedaqogikası adını İtaliyanın şimalındakı Reggio Emilia qəsəbəsindən götürür. İkinci Dünya müharibəsindən sonra uşaqlara yeni bir yanaşma ilə uşaq bağçaları açıldı. Bu texnika psixoloq Loris Malaguzzi tərəfindən digər valideynlərlə birlikdə hazırlanmışdır. Onlar yanaşmalarında o dövrün ən məşhur psixoloq və pedaqoqlarının: D. Dyui, J. Piage, L. Vygotsky, D. Bruner, M. Montessori və başqalarının fikirlərini əsas götürdülər. Loris Malaguzzi və onun davamçıları üçün hər bir uşağa təhsil almaq və kifayət qədər tərbiyə almaq imkanı yaratmaq son dərəcə vacib idi. Buna görə də ailənin maddi vəziyyəti və ya uşağın fiziki sağlamlığı əhəmiyyət kəsb etmirdi, əksinə, kasıb və imkansız ailələrdən olan uşaqlar birinci növbədə qəbul edilirdi. Beləliklə, o dövrün bütün dünya və ən mütərəqqi təcrübəsini yanaşmalarında cəmləşdirməyə çalışırdılar.

Reggio Emilia pedaqogikası İtaliyanın bu bölgəsində təsadüfən yaranmadı. Bu bölgə yüksək səviyyədə ictimai fəallığı və vətəndaşlığı ilə məşhur idi. Bölgənin bu xüsusiyyəti Reggio Emilia pedaqogikasında müəyyən bir iz buraxır və uşaqları bir şəxsiyyət kimi yetişdirməklə yanaşı, onu inkişaf etdirməyi hədəfləyir: demokratiya, digər insanlarla həmrəylik və sosial ədalət.

Reggio Emilia pedaqogikasında müəllim tərbiyə etmir, ancaq uşaqlara kömək edir. Uşağın istək və fikirlərini həyata keçirməyə kömək edən bərabər tərəfdaş rolunu oynayır. Buna görə uşağı fəal və diqqətlə dinləyir, ona hörmətlə yanaşır və hər şəkildə kömək etməyə çalışır. Müəllim uşaqlara hazır cavabları öyrətmir, onları sual verməyə və öz həll və cavablarını axtarmağa, öz kəşflərini etməyə təşviq edir. Reggio Emilia yanaşmasında ətraf mühit bir pedaqoq kimi qəbul edilir.

Reggio Emilia modeli John Dewey-in proqressiv təhsil ideyaları və Lev Vygotskynin sosial-mədəni nəzəriyyəsi ilə əlaqəli olsa da, uşağı bütöv fərd kimi qiymətləndirməsi və simvolik ifadənin öyrənmədə rolunu önə çıxarması ilə fərqlənir. Bu tədqiqat modelin iki əsas prinsipini – "Uşağın 100 Dili" və "Mühitin Üçüncü Müəllim" – analiz edərək, onların MQT keyfiyyətinə təsirini araşdırır.

Metodoloji Çərçivə

Kiçik yaşlı uşaqların öyrənməyə marağını artıra bilmək,


This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).

onları ciddi çərçivələrlə məhdudlaşdırmamaq Reggio Emilia yanaşmasının əsas ana xəttini təşkil edir. Uşaqların özlərini ifadə etmək üçün bir çox yol olmalıdır (dram, musiqi, rəsm, oxuma, rəqs, tikinti, söhbət) [*Даниленко М.* ].

Reggio Emilianın pedaqoji konsepsiyası iki əsas prinsipə əsaslanır:

- uşaqlığın insan şəxsiyyətinin inkişafında xüsusi, dəyərli bir dövr kimi tanınması;
- uşaq şəxsiyyətinin unikallığının sərbəst müstəqil fəaliyyətdə inkişaf etməsi.

**Reggio Emilia və Ənənəvi Yanaşmanın Müqayisəsi**

| **Xüsusiyyətlər** | **Ənənəvi Məktəbəqədər Təhsil** | **Reggio Emilia Yanaşması** |
|---|---|---|
| **Uşaq Modeli** | Məlumatı qəbul edən (Pasiv) | Bilik yaradan və tədqiqatçı (Aktiv) |
| **Tərbiyəçi-müəllimin Rolu** | Bilik ötürücüsü və idarəçi | Bələdçi, müşahidəçi və ortaq öyrənən |
| **Kurikulum** | Əvvəlcədən müəyyən edilmiş (Sabit) | Uşağın maraqlarından doğan (Emergent) |
| **Öyrənmə Mühiti** | Sadəcə funksional (Masa, stul) | "Üçüncü Müəllim" (Estetik, stimullaşdırıcı) |
| **Qiymətləndirmə** | Standart testlər və hesabatlar | Pedaqoji sənədləşmə (Foto, video, qeydlər) |
| **Əsas Alətlər** | Kitablar ,iş vərəqləri | "100 Dil" (Gil, boya, işıq, təbiət, texnologiya) |
| **Valideyn Rolu** | Kənar müşahidəçi | Təhsil prosesinin rəsmi tərəfdaşı |

Bu yanaşma uşaqların özlərinin təlim layihələrinin əsas təşəbbüskarları olduğu nəzəriyyəsinə əsaslanır və tərbiyəçi-müəllimlərin vəzifəsi kiçik tədqiqatçılara dünya haqqında fikirlərini ifadə etməkdə kömək etmək, yol göstərməkdən ibarətdir. Tərbiyəçi-müəllim öyrətmir və məcbur etmir, yalnız uşaqlara cavab yolunu göstərir, müstəqil inkişafa zəmin yaradır. Malaguzzi tərəfindən irəli sürülən "Uşağın 100 Dili" konsepti uşağın biliyini yalnız dil vasitəsi ilə ifadə etməklə məhdudlaşdırmır. Uşaq rəsm, heykəltəraşlıq, maket hazırlama, dramatik oyun, musiqi və digər simvolik vasitələrlə mürəkkəb ideyalarını ifadə edə bilir (Malaguzzi, 1998).

Reggio Emilianın yanaşması keçən əsrin müharibədən sonrakı illərində İtaliyanın şimalındakı Regio Emilia şəhəri yaxınlığındakı kiçik bir kənddə yaranmışdır. Bu kəndin sakinləri müharibədən sonra bütün güclərini və qaynaqlarını

*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

uşaqlarına azad və layiqli bir gələcək təmin etmək üçün yeni bir uşaq bağçasının yaradılmasına və inkişafına sərf etdilər.

Loris Malaguzzi uşağın xarici dünya ilə ünsiyyət qurduğunu vurğulayaraq, uşaq dilinin bənzərsiz unikallığa malik olmasına xüsusi diqqət yetirirdi. Müxtəlif təsirlər sayəsində uşaq dünyanı hərtərəfli şəkildə dərk edir. Burada eyni zamanda, uşaq öz zəngin daxili dünyasına, mədəniyyətinə sahib olan səlahiyyətli bir varlıq kimi qəbul edilir. Uşağın daxili enerjisini və dünyaya tədqiqat münasibətini formalaşdırmaq üçün onun ətraf mühitlə aktiv qarşılıqlı əlaqəsi, böyüklərin hörmətli və etibarlı münasibəti lazımdır (А. Г. Гогоберидзе, О. В. Солнцевой, 2013).

Bu yanaşma Howard Gardner-in Çoxsaylı İntellektlər Nəzəriyyəsi ilə uyğunluq təşkil edir və fərqli bacarıqların inteqrasiyasını təşviq edərək uşağın yaradıcı və tənqidi düşüncəsini inkişaf etdirir (Gardner, 1993).

Reggio Emilia pedaqogikasında uşaq özünü böyüklər üçün əhəmiyyətsiz görünən və ya tamamilə diqqətdən kənarda qalan bir çox yolla ifadə edir. Reggio Emiliada gilli torpaqla işləmək, işıq-kölgə təcrübələri və rəsm sadəcə incəsənət deyil, uşağın bir problemi necə həll etdiyini göstərən "düşünmə alətləri"dir (Biermeier, 2015). Əgər uşaqların qabiliyyətləri, yaradıcı imkanları, münasibətləri nəzərə alınmayacaqsa, ətraf aləm haqqında düşünmək üçün vaxt və fürsət verilməsə onlar özlərini ifadə etməkdə çətinlik çəkəcəklər . Uşağın qavrayışı xüsusi bir xarakter daşıyır, onların münasibətləri dəyərlidir, öz təcrübələri, digər uşaqlarla, böyüklərlə birlikdə öyrənir, ancaq bu birbaşa baş vermir, dolayı yolla, təəssüratlarını fəaliyyət kontekstinə daxil etməklə və onları emal etməklə reallaşır.

Pedaqoji sənədləşmə (məsələn, qeydlər, fotoşəkillər, layihələr) uşağın müxtəlif "dillərini" görünən edir və müəllimlər üçün kurikulumu uşaq ehtiyaclarına uyğun formalaşdırmaq üçün tədqiqat aləti rolunu oynayır (Rinaldi, 2006). Reggio Emilia hər uşağın qabiliyyətinə inanır və ona etibar edir. Burada müəllimin vəzifəsi uşağa özünü ifadə etməkdə, hisslərini və təəssüratlarını açıqlamaqda kömək etməkdir. Uşaqların maraqları sonsuzdur, onlar boş yerə suallar vermir. Ətraf mühitdə gördükləri, toxunduqları, eşitdikəri, hiss etdikləri nə varasa bütünlüklə onları maraqlandırır.

Mühitin "üçüncü müəllim" olması konsepsiyası (The Environment as the Third Teacher), məkanın uşağın daxili nizamını və yaradıcılığını stimullaşdıran bir faktor olduğunu


*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

təsdiq edir. Bu yanaşmada mühit təmiz, estetik cəhətdən cəlbedici və uşağın boy səviyyəsinə uyğun materiallarla zəngin olmalıdır. Mərkəzi meydan olan "Piazza" uşaqlarda demokratiya və birgə yaşayış hissini inkişaf etdirən sosial katalizator funksiyasını daşıyır.

Reggio Emilia pedaqogikasında fiziki mühit - sinif otağı, atelye və dəhlizlər - öyrənməyə birbaşa təsir edən üçüncü subyekt kimi qəbul edilir (Gandini, 1998). Burada uşaq müstəqil tədqiqat üçün öz layihəsini və ya mövzusunu seçə bilər. Adətən layihələr oyunlarda və ya söhbətlərdə doğulur- bu anda uşaqları maraqlandıran mövzular yarana bilər. Uşaq bağçasının sahəsi uşaq üçün faydalı vizual və toxunma məlumatları, götürmək, anlamaq, oyunda tətbiq etmək üçün maraqlı olan əşyalarla doludur: bu çox sayda təbii material (yarpaqlar, toxumlar, budaqlar və s.) və onları öyrənmək üçün əşyalar (böyüdücülər, mikroskoplar, lümen masaları, dülgərlik və çilingər alətləri və s.), müxtəlif oyuncaqlar, boyalar, tullantı materialları və s.

Vygotskynin sosio-mədəni nəzəriyyəsi çərçivəsində mühit uşağın Yaxın İnkişaf Zonasında sərbəst öyrənməsini dəstəkləyən mədəni vasitəçi rolunu oynayır (Vygotsky, 1978). Estetik cəhətdən zəngin, təbii işıq və neytral rənglərlə dizayn edilmiş, "Loose Parts" ilə təchiz olunmuş mühit uşaqlara kəşfiyyat və yaradıcılıq imkanlarını artırır.

Bu mühit uşaqlara seçim etmək, fərziyyələrini sınamaq və öyrənmə yollarına nəzarət etmək imkanı verərək onların avtonom və səlahiyyətli iştirakçılar kimi inkişafına şərait yaradır.

Nəticə və Tövsiyələr

Reggio Emilia yanaşması uşağı müstəqil bilik qurucusu kimi qəbul edən fəlsəfi baxışı ilə müasir məktəbəqədər təhsil üçün zəngin, insan mərkəzli model təqdim edir. "Uşağın 100 Dili" və "Mühitin Üçüncü Müəllim" prinsipləri uşaqlarda yaradıcılıq, sosial bacarıq və tənqidi düşüncə kimi XXI əsr səriştələrini inkişaf etdirir. Modelin tətbiqi məktəbəqədər təhsil müəssisələrində uşağa güclü və potensiallı fərd kimi yanaşma tələb edən paradiqma dəyişikliklərinə yol açır. Bu dəyişikliyin əsas təminatları tərbiyəçi-müəllimlərin bir tədqiqatçı kimi çıxış etməsi, peşəkar inkişafı, pedaqoji sənədləşməyə sərmayə qoyulması və öyrənmə mühitinə strateji yanaşmanın vacibliyidir.

Tövsiyələr:

1. Pedaqoji Sənədləşmənin Zəruriliyi: Məktəbəqədər təhsil proqramlarında sənədləşmənin yalnız hesabat forması deyil,

*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

kurikulumun formalaşdırılması üçün əsas tədqiqat aləti kimi tətbiqi genişləndirilməlidir.

2. Mühitə Strateji İnvestisiya: Məktəbəqədər təhsil müəssisələrinin fiziki məkanlarının təbii materiallarla, sərbəst hissələrlə və estetik elementlərlə zənginləşdirilməsi prioritetləşdirilməlidir.

3. Gələcək Tədqiqatlar: Fərqli mədəni və sosial-iqtisadi kontekstlərdə, xüsusən inkişaf etməkdə olan ölkələrdə Reggio Emilia yanaşmasının tətbiqinin uşaqların uzunmüddətli akademik nailiyyətlərinə və sosial-emosional inkişafına təsirini qiymətləndirən müqayisəli tədqiqatlar aparılmalıdır.

## References:

[1] Dewey, J. (1938). *Experience and education*. Kappa Delta Pi.
[2] Edwards, C. P., Gandini, L., & Forman, G. E. (Eds.). (1998). *The hundred languages of children: The Reggio Emilia approach—advanced reflections*. Ablex Publishing.
[3] Gandini, L. (1998). Educational and caring spaces. In C. Edwards, L. Gandini, & G. Forman (Eds.), *The hundred languages of children: The Reggio Emilia approach—advanced reflections* (pp. 161-178). Ablex Publishing.
[4] Gardner, H. (1993). *Frames of mind: The theory of multiple intelligences* (10th-anniversary ed.). Basic Books.
[5] Malaguzzi, L. (1998). History, ideas, and basic philosophy. In C. Edwards, L. Gandini, & G. Forman (Eds.), *The hundred languages of children: The Reggio Emilia approach—advanced reflections* (pp. 49-97). Ablex Publishing.
[6] Rinaldi, C. (2006). *In dialogue with Reggio Emilia: Listening, researching and learning*. Routledge.
[7] Biermeier, M. A. (2015). Inspired by Reggio Emilia: Emergent curriculum in relationship-driven learning environments. *Young Children, 70*(5), 72-79.
[8] Vygotsky, L. S. (1978). *Mind in society: The development of higher psychological processes* (M. Cole, V. John-Steiner, S. Scribner, & E. Souberman, Eds.). Harvard University Press.
[9] İmamoğlu, B. ve Öz, S. Z. 2002. Küçük Bir Köyden Dünyaya Yayılan Bir Eğitime "Reggio Emilia Eğitimi". Özgür ve Bilge Dergisi. Yıl 1, sayı 11.
[10] Даниленко М. Уникальная проектная деятельность в детских садах Реджио-Эми- лия. [Электронный ресурс]. URL: http://www.deti-club.ru/doshkolnoe-obrazovanie- unikalnaya-proektnaya-deyatelnost-v-detskikh-sadakh-reggio-emilia (дата обращения: 2.11.2016).
[11] Дошкольная педагогика с основами методик воспитания и обучения: Учебник для вузов. Стандарт третьего поколения / Под ред. А. Г. Гогоберидзе, О. В. Солнцевой.- СПб.: Питер, 2013. - 464 с.


*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*